**M U Z E Y Ş Ü N A S L I Q**

**UOT: 09.**

**Vüqar Qurbanov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: vuqar.qurbanov.2016@inbox.ru**

# DÜNYA ÖLKƏLƏRİNİN ARXİVLƏRİ

Arxiv sözünün kökü qədim Yunan dilində olan "arkheon" sözündəndir. Latınca mənası isə "archvium" deməkdir. Arxiv sənədlərinin çoxu tunc lövhələr, papiruslar, perqamentlər, mətbəədə çap edilmiş sənədlər təşkil edir. Bundan başqa mikrofilmlər, şəkillər, səs yazıları və videokasetlər də arxiv sənədi ola bilər. Bir sənədin arxiv materialı olması üçün üstündən ən azı 30 il keçməlidir.

Aparılan araşdırmalar nəticəsində e.ə. 2000-ci ilə aid olan Mesopotamiya dövlət və məbəd arxivləri tapılmışdır. Nippur şəhərində lövhələrin gizləndiyi rəsmi bir dövlət arxivi də olduğu bilinir. 1906-cı il və sonrakı illərdə aparılan qazıntılar nəticəsində Hattuşaşda (indiki Boğazköydə) e.ə.1800-2000-ci illərə aid hetlərin rəsmi yazışmaları, qanunları və bir çox sənədlərinin gizləndiyi böyük bir dövlət arxivi ortalığa çıxarılmışdır. Buradan tapılan sənədlərin bir qismi İstanbul muzeyində, bir qismi isə Ankara arxeologiya muzeyində saxlanılır.

Misirdə Əl-Amarnada IV əsrə aid olan mixi yazısı və o dövrün diplomatik dili olan akkadça yazılmış sənədlər meydana çıxarılmışdır.

Qədim Yunan və Romalılar arxivə tabularium, tabularius, chartarium adlarını vermişdirlər. Atinada e.ə. IV əsrdə də rəsmi sənədlərin yığıldığı bir dövlət arxivi olduğu aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur. Romada isə e.ə. 83-cü ilə aid olan bir dövlət arxivi binası müəyyən edilmişdir. Gəlin dünya arxivlərinin bir neçəsinə nəzər salaq.

Fransa. Arxiv işlərinə lazımı dəyəri verən və bu mövzuda tez davranan millətlərdən biri də fransızlardır. Bir elm şəklində inkişafı XVII əsrdə başlamışdır. O zamanlar Dom Mobilian tərəfindən Diplomatiya elmi adı altında inkişaf etməyə başlayırdı. Arxivlərin quruluş tarixi olaraq isə 1789-cu il Fransa inqilabını göstərmək olar. Fransa inqilabı arxivə yeni bir mövqe gətirmişdir.

Almaniya. Orta Avropada alman arxiv materiallarını XIII əsrdən görmək olur. Ancaq adı ilə bilinən ən qədim yazılar Yakob Van Rommingerin yazdığı materiallardır. Bu yazılar 1571-ci ildə çap edilmiş, amma bilindiyi qədəri ilə 1500-cü illərin I yarısından yazılmışdır. V.R.Yakob bu akademik mövzunun atası olaraq bilinir. O, Almaniyanın sahib olduğu bir neçə yüzillik arxiv ənənəsini qurdu.

Şotlandiya arxivləri. Şotlandiya arxivlərinin qorunma altına alınmasının tarixi çox qədimdir. Bu məqsədlə düzəldilmiş ilk arxiv binası 1540-cı illərə aiddir. Hal-hazırda istifadə edilən idarə binası (General Register House) arxiv üçün 1774-1787-ci illər arası inşa edilmişdir. Avropanın ən qədim binalarından biridir. Birləşmiş Krallıqda yaranıb və hələ də eyni məqsəd üçün istifadə edilir. İlk inşa edildiyi vaxt yanğın və sel fəlakətləri diqqətə alınaraq düzəldilmişdir. Bina kiçik otaqlar şəklində bölünmüşdür. Bu, yanğın olan zaman yanğını kiçik yerlərə həbs etmək üçündür.

İspaniya arxivlərinin tarixi də qədim köklərə dayanmışdır. 1543-cü ildə Simancasda ilk arxivin qurulduğu bildirilmişdir. 1785-ci ildə Sevilyada "Archivo de İndias" arxiv binası qurulmuşdur. Ancaq İspaniyada arxivlərin müasir şəkildə təşkilatlandırılması 1939-cu ildən etibarən mümkün olmuşdur.

İngiltərədə isə ancaq 1838-ci ildə çıxarılan bir qanun ilə İngiltərə dövlət arxivi qurulduqdan sonra bütün rəsmi sənədlər bir yerə toplanmağa başlanmışdır. Bu gün İngiltərədə arxiv ingilis kraliçasının himayəsi altındadır. Bu arxivin maddi tələbatı xəzinə tərəfindən qarşılanır.

Hollandiya dövlət arxivi 1802-ci ildə Haaqada qurulmuşdur. Şimali Avropanın əhali etibari ilə ən kiçik ölkələrindən biri olan Finlandiya 1816-cı ildə İsveçdən ayrılmasından sonra arxiv idarəsini qura bilmişdir.

Ümumiyyətlə arxivlər hər bir ölkənin keçmişini əks etdirir və tarixi araşdırmalar üçün çox dəyərli sənədlər burada saxlanılır.

**Ədəbiyyat siyahısı:**

1. Prof. Dr. Osman – Fransa kütüphaneciliğine bir bakış –Tür Kütüphaneciler Derneği Bülteni 1976
2. Prof İdris Bostan – Avrupa arşivlerine gore 16 yüzyılda akdeniz dünyası İstanbul 2004
3. Feride Ayliz Demir- Değişen dünyada arşivler- İstanbul 2009
4. Eric Ketelaar - Archiving people Asocial History of Dutch Archives-Amsterdam 1863
5. Arşiv dünyası makalesi –Arşiv ve arşivcilik -İstanbul 2012

**Tezisin redaksiyaya daxil olma tarixi: 17. 01. 2022**

**Tezisi çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova**